

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 82 (21.492)

*5 may 2016-cı il, cümə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik

*Rəsmi xronika*

Mayın 4-də Bakının 8-ci Kilometr qəsəbəsindəki Qara Qarayev prospekti ilə Naxçıvani küçələrinin kəsişməsində inşa olunan çoxmərtəbəli avtomobil dayanacağı istifadəyə verilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dayanacağın rəmzi açılışını bildirən lenti kəsib.

Avtodayanacaqla tanış olan dövlətimizin başçısı İlham Əliyevə məlumat verilib ki, ümumi sahəsi 16 min 286 kvadratmetr olan avtodayanacağın yuxarı mərtəbəsi restoran kimi fəaliyyət göstərəcək. Buradan Heydər bağına gözəl mənzərə açılır. Bildirilib ki, dayanacaqda 391 avtomobili eyni vaxtda parklamaq mümkündür. Avtodayanacaq naviqasiya, avtomat yanğınsöndürmə sistemləri ilə təchiz olunub.

Paytaxtın 8-ci Kilometr qəsəbəsinin ən qaynar və hərəkətin intensiv olduğu ərazisində tikilən avtodayanacaq yol kənarlarının boşalmasına geniş imkan yaradacaq. Bununla da ərazidə avtomobil tıxacları aradan qaldırılacaq.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 4-də paytaxtın Nizami rayonunun 8-ci Kilometr qəsəbəsindəki Heydər bağında yaradılan şəraitlə tanış olub.



## İran İslam Respublikasının Poldəşt Gömrük terminal kompleksi istifadəyə verilmişdir

Mayın 4-də İran İslam Respublikasının Poldəşt Gömrük terminal kompleksinin açılışı olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov bu münasibətlə keçirilən tədbirdə iştirak etmişdir.

Ali Məclisin Sədrini Şahtaxtı-Poldəşt sərhəd-keçid məntəqəsində İran İslam Respublikasının Qərbi Azərbaycan Vilayəti ostandarının müavini Əlirza Radfər, İranın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Möhsün Pakayin və digər rəsmi şəxslər qarşılamışlar.

Sərhəd-keçid məntəqəsində Ali Məclis Sədrinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Fəxri qarovulun rəisi Ali Məclisin Sədrinə raport vermişdir.

Ali Məclisin Sədri fəxri qarovul dəstəsinin önündən keçmiş və əsgərləri salamlamışdır.







Poldəşt gömrükxanasında keçirilən tədbirdə əvvəlcə İran İslam Respublikasının dövlət himni səsləndirilmiş və Qurani-Kərimdən ayələr oxunmuşdur.

Tədbirdə Qərbi Azərbaycan Vilayətinin Nəqliyyat və Terminallar Baş İdarəsinin rəhbəri Əli Əkbəri, Maku Azad Zonasının icraçı direktoru Hüseyn Foruza və İran İslam Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Möhsün Pakayin çıxış edərək ölkələrimiz arasında dostluq əlaqələrindən, İranın yaxın vilayətləri ilə Naxçıvan Muxtar Respublikası arasında həyata keçirilən iqtisadi layihələrdən danışmış, mövcud əməkdaşlığın məmnunluq doğurduğunu diqqətə çatdırmışlar.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov İran İslam Respublikasında Poldəşt gömrükxanasının istifadəyə verilməsini dost və qonşu ölkələrimiz arasında əlaqələrin inkişafına dəyərli töhfə olduğunu bildirmiş, bu münasibətlə tədbir iştirakçılarını və istifadəçiləri təbrik edərək demişdir: Azərbaycan və İran qonşu və qardaş dövlətlərdir. Xalqlarımızı əsrlər boyu formalaşmış tarixi və müştərək dəyərlər birləşdirir. Bu dəyərlərin inkişafına daim mühüm əhəmiyyət verən Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev Azərbaycan-İran əlaqələrini mehriban qonşuluq və dostluq əlaqələri səviyyəsinə qaldırmışdır. Əlaqələrimizin daha da dərinləşməsində mühüm rolu olan Şahtaxtı-Poldəşt körpüsünün açılması da ulu öndər Heydər Əliyevin 1992-ci ildə Naxçıvanın rəhbəri kimi İrana rəsmi səfəri zamanı imzalanmış əməkdaşlıq protokolunda ayrıca bənd kimi öz əksini tapmış və 1992-ci il dekabr ayının 3-də ulu öndər Heydər Əliyevin və o zaman da Qərbi Azərbaycan Vilayətinin ostandarı olan Qurbanəli Səadətin iştirakı ilə Şahtaxtı-Poldəşt körpüsünün açılışı olmuşdur. Açılış tədbirində çıxış edən ümummilli liderimiz Heydər Əliyev demişdir: ***"Bu keçid məntəqəsinin açılması İran-Azərbaycan əlaqələrinin genişlənməsinə xidmət edir. Mən arzu edirəm ki, daimi körpünün tikintisi də tezliklə başa çatdırılsın və beləliklə, bizim əlaqələrimiz daha da möhkəmlənsin".***

Ali Məclisin Sədri demişdir: Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlətlərarası Müştərək Komissiyanın 5-ci iclasının nəticələri barədə Memoranduma əsasən 2005-ci ildə Araz çayı üzərində Şahtaxtı-Poldəşt körpüsünün tikintisinə başlanmışdır. Bundan sonra keçid məntəqəsinin buraxılış imkanlarının artırılması məqsədi ilə Şahtaxtı və Poldəşt sərhəd-keçid məntəqəsinə beynəlxalq status verilmiş və 2007-ci il oktyabr ayının 17-də yeni körpünün açılışı olmuşdur. Açılış tədbirində Azərbaycan Respublikası Prezidentinin və İran İslam Respublikasının birinci vitse-prezidentinin iştirakı hər iki tərəfdən Şahtaxtı-Poldəşt körpüsünə və buradakı sərhəd-keçid məntəqəsinin fəaliyyətinə verilən yüksək diqqətin ifadəsidir. Bu diqqət və qarşılıqlı səylər öz bəhrəsini vermişdir. Bu gün Azərbaycan və onun Naxçıvan Muxtar Respublikası ilə İran və onun yaxın bölgələri arasındakı əlaqələr bir nümunə səviyyəsindədir.

"Möhkəm təməl üzərində qurulmuş əməkdaşlığımızın inkişafına Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə İranın Şərqi və Qərbi Azərbaycan vilayətləri arasındakı əlaqələr də öz töhfəsini verir. Bu əlaqələr işgüzar, davamlı və sabit xarakter daşıyır", – deyən Ali Məclisin Sədri bu gün İranın yaxın bölgələri ilə Naxçıvan Muxtar Respublikası arasında əlaqələrin təşəkkül tapmasında və daha da möhkəmlənməsində əməyi olanların hamısına təşəkkürünü bildirmişdir.

Açılış mərasimində iştirak etdiyinə görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlıq edən Qərbi Azərbaycan Vilayətinin ostandarı Qurbanəli Səadət demişdir ki, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev tərəfindən təməli qoyulan İran-Azərbaycan əlaqələri bu gün inkişaf etdirilir. Şahtaxtı-Poldəşt gömrük keçid məntəqəsinin yaradılması, Poldəşt gömrükxanasının istifadəyə verilməsi də bu əlaqələrin tərkib hissəsi kimi mühüm əhəmiyyətə malikdir. Bu gün İran İslam Respublikasının Qərbi Azərbaycan Vilayəti ilə Naxçıvan Muxtar Respublikası arasında müxtəlif sahələrdə əməkdaşlıq vardır. Hər iki tərəfin səyləri ilə əlaqələr ilbəil inkişaf etdirilir. Qurbanəli Səadət Naxçıvan Muxtar Respublikasına səfərini xatırlamış, muxtar respublikanın mövcud iqtisadi inkişafının məmnunluq doğurduğunu bildirmiş və bunun münasibətlərin genişləndirilməsində mühüm amil olduğunu diqqətə çatdırmışdır.

İran İslam Respublikasının yol və şəhərsalma nazirinin müavini, Yol Xidmətləri və Şose Nəqliyyatı Təşkilatının sədri Davud Keşavərziya bildirmişdir ki, dost və qardaş ölkələr arasında əlaqələr müxtəlif sahələrdə inkişaf etdirilir. Bu gün İran və Azərbaycan arasında müasir gömrük məntəqələri fəaliyyət göstərir. İranın qonşu vilayətləri ilə Naxçıvan arasında əlaqələrin qurulması və inkişafında bu sərhəd-keçid məntəqələri mühüm əhəmiyyət daşıyır. Nəqliyyat sahəsində əməkdaşlıq da ilbəil genişləndirilir. Poldəşt Gömrük terminal kompleksinin istifadəyə verilməsi də İranın Qərbi Azərbaycan Vilayəti ilə Azərbaycanın Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqələrinin inkişafına mühüm töhfə verəcək, ticarət əlaqələrinin həcmi artacaqdır.

*Ardı 2-ci səhifədə*

Tədbir başa çatdıqdan sonra Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov İran İslam Respublikasının kütləvi informasiya vasitələrinin nümayəndələrinə müsahibə vermişdir.

Poldəşt Gömrük terminal kompleksi ilə tanışlıq zamanı məlumat verilmişdir ki, ümumi sahəsi 18 hektar olan kompleksdə müasir avadanlıqlar quraşdırılmış, gömrük nəzarətinin həyata keçirilməsi üçün lazımi şərait yaradılmışdır. Gömrük keçid məntəqəsi insanların və avtomobillərin rahat keçidini təmin edəcək, gömrük nəzarəti və rəsmiləşdirilməsi operativ həyata keçiriləcəkdir. Yeni kompleks Naxçıvan Muxtar Respublikası və İranın Qərbi Azərbaycan Vilayəti arasında iqtisadi-ticarət əlaqələrinin genişlənməsinə və beynəlxalq yükdaşımaların həcminin artmasına öz töhfəsini verəcəkdir.

Gömrük məntəqəsi ilə tanışlıqdan sonra Qərbi Azərbaycan Vilayətinin ostandarı Qurbanəli Səadət Ali Məclisin Sədrinə xatirə hədiyyəsi təqdim etmişdir.

Şahtaxtı-Poldəşt sərhəd-keçid məntəqəsində Ali Məclisin Sədrini Qərbi Azərbaycan Vilayəti ostandarının müavini Əlirza Radfər və digər rəsmi şəxslər yola salmışlar.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**



## Ulu öndər Heydər Əliyev və Azərbaycanın müstəqilliyi

*Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyində Heydər Əliyev lektoriyasının "Heydər Əliyev və Azərbaycanın müstəqilliyi" mövzusunda növbəti məşğələsi keçirilib.*

Ümummilli liderimiz Heydər Əliyevin anadan olmasının 93-cü ildönümü münasibətilə keçirilən məşğələni giriş sözü ilə nazirliyin aparat rəhbəri Canməmməd Canməmmədov açaraq bildirib ki, ulu öndərimizin müəyyənləşdirdiyi layihələr bu gün ölkə həyatının bütün sahələrində uğurla reallaşdırılır və məhz bunun nəticəsində Azərbaycan dinamik iqtisadi inkişaf yolu ilə inamla irəliləyir. Dahi rəhbərin ölkəmizdə idmanın və bədən tərbiyəsinin inkişafına yüksək diqqət və qayğısı bu sahədə yüksəlişin əsasını qoyub. Bu gün müstəqil Azərbaycan beynəlxalq aləmdə idman ölkəsi kimi tanınır.

Sonra "Naxçıvan" Universitetinin İdarəetmə fakültəsinin dekanı, tarix üzrə fəlsəfə doktoru, dosent Elbrus



İsayev "Heydər Əliyev və Azərbaycanın müstəqilliyi" mövzusunda məruzə edib. Məruzəçi qeyd edib ki, ötən əsrin sonlarında Sovetlər Birliyi iflasa uğradıqdan sonra respublikaya naşı adamların rəhbərlik etməsi ölkəmizdə özbaşınalıq yaradıb, daxili sabitlik pozulub, yenicə qazanılmış müstəqilliyimiz təhlükə ilə üzləşib. Həmin dövr Naxçıvan Muxtar Respublikasında da ictimai-siyasi hadisələrin ən mürəkkəb dövrü kimi xarakterizə olunur. Sovet imperiyası rəhbərliyinin Azərbaycanın maraqlarına zidd siyasəti, ermənilərin Naxçıvana ərazi iddiaları və sərhədlərdə hərbi toqquşmalar yaratması muxtar respublikanın həyatına ciddi təsir göstərib. Bu dövrdə bütün Azərbaycanda, həmçinin Naxçıvanda xalqın azadlıq uğrunda apardığı mübarizəni qələbə ilə başa çatdırmaq üçün milli rəhbər lazım idi. Belə bir rəhbər xalqımızın müdrik oğlu, görkəmli dövlət xadimi Heydər Əliyev idi. Ulu öndər Heydər Əliyev 1990-cı il iyulun 20-də Moskvadan Bakıya, iyulun 22-də isə doğulduğu Naxçıvan torpağına gəlib. Bu dövrdən etibarən ulu öndərin siyasi fəaliyyətinin Naxçıvan dövrü başlayıb.

1990-cı il noyabr ayının 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin ilk sessiyası ümummilli lider Heydər Əliyevin sədrliyi ilə keçirilib. Həmin sessiyada Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adının dəyişdirilərək Naxçıvan Muxtar Respublikası adlandırılması, Azərbaycan Xalq Cümhuriyyətinin milli istiqlal rəmzi olan üçrəngli dövlət bayrağının Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı kimi qəbul edilməsi haqqında qərarlar qəbul olunub. Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Azərbaycan SSR Ali Sovetinin qarşısında həmin bayrağın bütünlükdə Azərbaycanın rəsmi dövlət rəmzi kimi tanınması haqqında vəsatət qaldırıb. Ümummilli liderin Naxçıvanda yaşayıb fəaliyyət göstərdiyi dövrdə qonşu İran və Türkiyə respublikaları ilə müxtəlif sahələrdə əməkdaşlıq müqavilələrinin imzalanması və bu əməkdaşlığın real müstəviyə çıxarılaraq inkişaf etdirilməsi muxtar respublikanın mədəni, iqtisadi, eləcə də siyasi həyatında mühüm rol oynayıb.

Bildirilib ki, 1993-cü ildə xalqın təkidli tələbi ilə yenidən ölkəyə rəhbərlik etməyə başlayan ulu öndər Heydər Əliyev yürütdüyü müdrik siyasət nəticəsində ölkədə daxili sabitliyin bərpa edilməsinə nail olub, torpaqlarımızın işğalının qarşısını alıb. Dahi şəxsiyyətin yorulmaz fəaliyyəti nəticəsində çox qısa zamanda Azərbaycan iqtisadi, siyasi, mədəni gücü ilə dünya dövlətləri sırasında öz layiqli yerini tutub. Təbii ki, bütün bunlar heç də asan olmayıb. Xalq öz liderinə, dahi şəxsiyyət isə öz xalqına arxalanaraq bütün bunları həyata keçirib. Buna görə də müstəqil Azərbaycan dövləti var olduqca xalqımızın xoşbəxt gələcəyini təmin edən ümummilli lider Heydər Əliyevin adı da qəlbimizdə yaşayacaqdır.

Sonra gənclərin ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyəti barədə sualları cavablandırılıb.

**Səbuhi HÜSEYNOV**

## Koreya Respublikasının səfiri muxtar respublikanın istehsalat, mədəniyyət müəssisələrində olub, tarixi abidələri ziyarət edib

***Xəbər verdiyimiz kimi, Koreya Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Kim Çanq-Qyu mayın 2-də Naxçıvan Muxtar Respublikasına səfər edib. Səfər çərçivəsində o, muxtar respublikanın istehsalat, mədəniyyət müəssisələrində olub, tarixi abidələri ziyarət edib.***

Əvvəlcə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin Naxçıvan şəhərində ucalan abidəsini ziyarət edən Koreyanın səfiri Heydər Əliyev Muzeyi ilə də tanış olub.

Duzdağ Fizioterapiya Mərkəzində koreyalı qonağa buradakı müalicə prosesi haqqında məlumat verilib. Bildirilib ki, bu səhiyyə müəssisəsi bir çox xəstəliklərin müalicəsində əhəmiyyətli şəfa ocağıdır. Buna görə də hər il dünyanın müxtəlif ölkələrindən bura müalicə üçün xeyli insan gəlir.

Mayın 3-də Naxçıvan Biznes Mərkəzinə gələn qonağa muxtar respublikanın iqtisadi sahədə əldə etdiyi nailiyyətlər barədə məlumat verilib.

Kim Çanq-Qyu Naxçıvan Dövlət Universitetində də olub. Universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov qonağa məlumat verərək bildirib ki, Naxçıvan Dövlət Universitetində tədrisdə ən müasir texnologiyaların tətbiqi, distant təhsilə keçid, elektron universitet qurulması istiqamətində mühüm işlər görülüb. Koreya Beynəlxalq Əməkdaşlıq Agentliyi (KOİCA) ilə birgə həyata keçirilən, "Naxçıvan Dövlət Universitetində elektron təhsil şəbəkəsi və rəqəmsal multimedia infrastrukturunun yaradılması" layihəsi də Azərbaycan ali məktəbləri içərisində ən irihəcmli layihə olmaqla, bu sahədə atılan mühüm addımdır.

Vurğulanıb ki, 2013-cü ildə Azərbaycan Respublikası Təhsil Nazirliyi ilə Koreya Respublikasının Xarici İşlər və Ticarət Nazirliyi arasında "Naxçıvan Dövlət Universiteti üçün elektron təhsil şəbəkəsi və rəqəmsal multimedia infrastrukturunun yaradılması"na dair qrant sazişi imzalanaraq layihənin icrasına başlanılıb. Tərəflər arasında layihə ilə bağlı müqavilə imzalandıqdan sonra



Naxçıvan Dövlət Universitetinin Təhsil İnformasiya Sisteminin idarəsi ilə bağlı bilikləri möhkəmləndirmək məqsədilə, koreyalı mütəxəssislərdən ibarət qrup müxtəlif vaxtlarda Naxçıvan Dövlət Universitetində olub, həmçinin universitet rəhbərliyi və işçi qrupu da, öz növbəsində, Koreya Respublikasının paytaxtı Seul şəhərinə ezamiyyətə göndərilib. Universitet tərəfindən bu işə cəlb olunan mütəxəssislər təlimlərdə iştirak edərək məlumatlandırılıblar.

Saleh Məhərrəmov qeyd edib ki, 2013-2015-ci illəri əhatə edən layihə uğurla yekunlaşıb.

Sonra səfir universitetin İnformasiya-Kommunikasiya Texnologiyaları və Media, Cənubi Koreya Mədəniyyət və Dil Tədris mərkəzləri ilə tanış olub.

Səfir Kim Çanq-Qyu "Naxçıvan" Universitetində də olub. Ali məktəbin rektoru, professor İsmayıl Əliyev bildirib ki, universitetdə minə yaxın tələbə təhsil alır. İndiyədək universitetin 3245 məzunu olub. Bu tədris ilində universitetdə 13 ixtisas üzrə mütəxəssis hazırlığı aparılır.

Qeyd olunub ki, bu gün "Naxçıvan" Universitetinin beynəlxalq əlaqələri də genişləndirilir. Dünyanın məşhur təhsil müəssisələrindən olan Almaniyanın Lüdviq Maksimillians Universiteti ilə, son dövrlərdə isə Türkiyənin 9 ali təhsil ocağı, eləcə də Rumıniya, Çexiya və Latviya universitetləri ilə əlaqələr yaradılıb, bununla da, universitetin əməkdaşlıq etdiyi ali məktəblərin sayı 51-ə çatıb.

Səfir Naxçıvan şəhərindəki Heydər Əliyev Sarayı ilə də tanış olub.

Rəsm Qalereyası ilə tanışlıq zamanı məlumat verilib ki, burada Azərbaycan, o cümlədən Naxçıvan, həmçinin Rusiya rəssamlarının 300 əsəri nümayiş etdirilir.

Mayın 4-də Koreya Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Kim Çanq-Qyu "Gəmiqaya Mineral Sular" Məhdud Məsuliyyətli Cəmiyyətinin Badamlı Mineral Sular Zavodunda olub. Burada bildirilib ki, muxtar respublikada sahibkarlıq mühitinin formalaşdırılması, iş adamları üçün əlverişli şəraitin yaradılması "Badamlı" mineral suyunun da əvvəlki şöhrətini özünə qaytarıb.

Vurğulanıb ki, zavodda məhsulun keyfiyyətinə ciddi nəzarət edilir. Burada Almaniya istehsalı olan müasir avadanlıqla təmin edilmiş xüsusi laboratoriya qurulub. Laboratoriyada suyun minerallıq dərəcəsi, qələviliyi, ümumi analizləri yoxlanılır, keyfiyyətə zəmanət verilir. Bunun nəticəsidir ki, "Badamlı" mineral suyu beynəlxalq sərgilərdə yüksək qiymətləndirilir.

Səfir Babək rayonunun Xal-xal kəndi yaxınlığında yerləşən Günəş elektrik stansiyasına gəlib. Burada qonağa məlumat verilərək bildirilib ki, 20 meqavat gücə malik stansiyada 78 min 684 ədəd ən müasir "şüşə-şüşə" tipli günəş panelləri, onlar üçün dayaqlar və 11 elektrik yarımstansiyası quraşdırılıb. Panellərlə transformator yarımstansiyaları, transformator yarımstansiyaları ilə birləşdirici məntəqə arasında kabel və yüksəkgərginlikli elektrik ötürücü, həmçinin yaxınlıqdakı "Xal-xal" yarımstansiyasına qədər 35 kilovoltluq kabel xətləri çəkilib.

Qeyd edək ki, Naxçıvan Dövlət Xalça Muzeyi, "Xan Sarayı" Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksi, "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksi ilə tanışlıq da səfirdə xoş təəssürat yaradıb.

Mayın 4-də Koreya Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Kim Çanq-Qyunun Naxçıvana səfəri başa çatıb.

### Bundan sonra əməkdaşlığımızın daha da genişləndirilməsi üçün səylərimi artıracağam

"Şərq qapısı" qəzetinin müxbirinə səfərinin məqsədi və səfər təəssüratları barədə danışan səfir Kim Çanq-Qyu deyib: "Səfərimin məqsədi Naxçıvan Muxtar Respublikası ilə tanış olmaq, əməkdaşlıq əlaqələrinin inkişaf istiqamətlərini müzakirə etməkdir. Xüsusilə mədəniyyət sahəsində bizim əlaqələrimizin inkişaf perspektivləri çox yüksəkdir. Qarşılıqlı əməkdaşlıq imkanlarımız çox genişdir. Çünki xalqlarımız eyni mədəni köklərə sahibdir".



Səfir qeyd edib ki, Naxçıvan Biznes Mərkəzində muxtar respublikada istehsal olunan məhsullarla tanış olub: "Naxçıvan Biznes Mərkəzində olarkən gördüklərim və verilən məlumat məndə belə bir qənaət yaratdı ki, Naxçıvan Muxtar Respublikası özünün istehsal etdiyi məhsullarla yerli tələbatı tam ödəyir. Naxçıvan əhalisi firavan və xoşbəxt yaşayır. Ona görə ki, muxtar respublika çox böyük inkişaf yolu keçib. Tarixi şəhər mədəniyyətinə malik olan Naxçıvan şəhəri həm də müasir görkəmi ilə diqqətimi cəlb etdi. Naxçıvan əhalisinin öz torpaqlarını düşməndən müdafiə etmək əzmi çox yüksək qiymətə layiqdir".

Çoxsaylı koreyalı tələbələrin Naxçıvanın ali təhsil müəssisələrində təhsil almasını yüksək qiymətləndirən Kim Çanq-Qyu deyib: "Düşünürəm ki, bundan sonra da əməkdaşlıq əlaqələrimizi daha da genişləndirmək imkanlarımız var və biz bunun üçün daha çox çalışmalıyıq. Mən bundan sonra əməkdaşlığımızın daha da genişləndirilməsi üçün səylərimi artıracağam".

Muxtar respublikanın tarixi məkanlarını, tarixi abidələrini ziyarət etdiyini qeyd edən səfir deyib ki, "Xan Sarayı" Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksində olarkən buradakı daş qoçlar onun diqqətini cəlb edib: "Maraqlıdır ki, Koreyadakı qədim məzarların üzərində də buna bənzər daş qoç heykəlləri vardır. Bunlar bir daha xalqlarımızın ortaq tarixi köklərə malik olduğunu göstərir. Mənim arzum odur ki, Altay dil qrupuna daxil olan, eyni mədəni irsi paylaşan xalqlar olaraq biz birgə inkişaf edək, sülh şəraitində yaşayaq".

Muxtar respublikada vətənpərvərlik hisslərinin çox yüksək olduğunu müşahidə etdiyini bildirən səfir deyib: "Mən burada onun da şahidi oldum ki, Naxçıvan əhalisi öz torpağı ilə, öz Vətəni ilə fəxr edir, xüsusilə də Heydər Əliyevin Naxçıvanda doğulub boya-başa çatdığına görə çox böyük qürur hissləri keçirir. Bu, insanların Vətəninə, torpağına, ümummilli liderinə sıx bağlılığını göstərir".

**Rauf ƏLİYEV**

## Eynəli bəy Sultanov – 150

**Bu gün görkəmli yazıçı-publisist və pedaqoqun doğum günüdür**

*Bəşər mədəniyyətinə mühüm töhfələr vermiş ulu Naxçıvanımızın yetirdiyi görkəmli ziyalılar sırasında Eynəli bəy Sultanovun da diqqətəlayiq mövqeyi vardır. O, çoxşaxəli yaradıcılıq fəaliyyəti ilə xalqımızın ədəbi-mədəni tərəqqisinə layiqli xidmət göstərmişdir. "Eynəli bəy Sultanovun 150 illik yubileyinin keçirilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 15 fevral 2016-cı il tarixli Sərəncamında qeyd olunduğu kimi:* ***"Publisistika sahəsində səmərəli fəaliyyət göstərən Eynəli bəy Sultanov bədii yaradıcılıqla da məşğul olmuş, ictimai fikrə və maarifçi mühitə təsir göstərən hekayə və dram əsərləri, şeirlər yazmış, tərcümələr etmişdir".***



# Eynəli bəy Sultanovun 90 il əvvəl nəşr olunmuş bir kitabı haqqında

On doqquzuncu əsrin sonları, iyirminci əsrin ilk onilliklərində bədii ədəbiyyat və publisistika sahəsində öz fəallığı ilə seçilən, rus və Azərbaycan dillərində müxtəlif səpkili əsərlərini mətbuatda dərc etdirən ədib onları kitablarda toplayıb oxuculara çatdırmağa o qədər də həvəs göstərməmiş, daha doğrusu, bu məsələdə təvazökar mövqe tutmuşdur. Zəngin və çoxcəhətli yaradıcılığa malik Eynəli bəyin sağlığında cəmi iki bədii kitabı çap olunmuşdur. Rus dilində yazdığı "Tatarka" ("Azərbaycan qızı") pyesi 1904-cü ildə İrəvanda kitab şəklində nəşr edilmiş, 1926-cı ildə isə Tiflisdə "Seyidlər" kitabı oxuculara çatdırılmışdır. Bəzi mənbələrdə "Seyidlər" hekayələr toplusu kimi xatırladılsa da, əslində, belə deyil. Eynəli bəyin 90 il əvvəl, 1926-cı ildə çap edilmiş "Seyidlər" kitabına yalnız eyniadlı hekayə daxildir.

Qeyd edək ki, Eynəli bəy bir sıra əsərlərini rusca yazsa da, böyük məhəbbət bəslədiyi doğma dilimizin incəliklərinə dərindən bələd idi və onun saflığının, təmizliyinin qorunmasını vacib sayırdı. Xüsusən 1920-30-cu illərdəki yazılarında bu cəhət daha qabarıqdır. Məsələn, E.Sultanov 1924-cü ildə dərc olunmuş bir məqaləsində sadə danışıq dilində, hamının anlayacağı şəkildə yazmağın zəruriliyini vurğulayaraq fikrini belə əsaslandırmışdır: "Evimizdə arvad-uşaqlarımızla, çöldə kəndlilərlə, fabrik-zavodlarda əmələlərlə və hətta bazarda alış-verişlə bir dildə danışdığımız halda, biz gərək qəzetəyə bir məqalə yazanda başqa dildə yazaq. Ayə, bu gülünc iş deyilmi? Demirəm ki, ərəb-fars kəlmələrini tamamilə dilimizin içindən çıxarıb ataq. O, mümkün deyil. Amma bacardıqca gərək elə yazaq və öz dilimizdə olan sözün əvəzinə heç bir yad söz işlətməyək ki, oxuyanların hamısı yazdıqlarımızı başa düşsün".

E.Sultanovun doğma dildə yazdığı əsərlərin, o cümlədən "Seyidlər" hekayəsinin dili məhz bu tələblərə cavab verirdi. Hekayə o zaman böyük maraqla qarşılanmışdı. Bunun bir səbəbi dilinin sadəliyi, canlı danışıq dilinə yaxınlığı, üslubunun aydınlığı, dolğunluğu ilə əlaqədar idisə, digər səbəbi də seçilmiş mövzunun emosionallığı, təsirli tərzdə təqdimi ilə bağlı idi.

Hekayədə tanımadığı iki seyidi qonaq saxlayıb nişanlı oğlu Şirməmmədi ertəsi gün onlarla birlikdə şəhərə göndərən kəndli Nurullanın və həyat yoldaşı Gülsümün faciəsi təsirli şəkildə təsvir edilib. Bəlli olur ki, tamahkar seyidlər toy parçası almağa gedən gənc oğlanı öldürüb pulunu aparmışlar. Qatillər cəzasına çatsalar da, valideynlərin qəlbinə çəkilən dağ sağalmır...

Apardığımız tədqiqat E.Sultanovun "Seyidlər" kitabının nəşri və ədəbi mühitdə əks-sədası barədə bir sıra maraqlı məqamlara işıq salır. 22 səhifəlik həmin kitab oxuculara aşağıdakı kimi təqdim olunmuşdu:

*Eynəli Sultanov. Seyidlər.*

*Yoldaş Rzaqulu Nəcəfovun müqəddiməsilə, köhnə yaşayışdan alınmış hekayədir.*

*Zaqafqaziya türk ölkə qəzeti "Yeni fikir"in nəşriyyatı, Tiflis – 1926.*

Məşhur satirik şairimiz Əliqulu Qəmküsarın qardaşı olan Rzaqulu Nəcəfov tanınmış publisist kimi həmin vaxt "Yeni fikir" qəzetinin nəşrinə rəhbərlik edənlərdən biri idi. Onun E.Sultanovun "Seyidlər" kitabına yazdığı "Bir neçə söz" adlı müqəddimə ilə tanışlıq bir sıra mətləbləri aydınlaşdırır. Hər şeydən öncə, R.Nəcəfov Azərbaycan ədəbiyyatının o dövrdəki ümumi mənzərəsinə nəzər salmış, poeziya və dramaturgiya ilə müqayisədə həyatı geniş epik lövhələrlə əks etdirən bədii nəsrin inkişafında geriliyin olması qənaətinə gəlmişdi: "Böyük bir tarixə malik Azərbaycan ədəbiyyatının hal-hazırdakı halını tədqiq etsək, görərik ki, ədəbiyyatın ən mühüm qismini təşkil edən hekayə və romannəvislik bizim içimizdə yox kimidir. Şeir və mənzum parçalar yazmağa nə qədər həvəs varsa, həyat və məişətimizdən götürülmüş, həqiqi diriliyimizi təsvir edərək bütün və mükəmməl "tip"lər yaratmış mənsur əsərlər, hekayə və romanlar yazmağa, məatəəssüf, rəğbət müşahidə olunmayır".

"Bir neçə söz"dən öyrənirik ki, Azərbaycan yazıçılarını oxucuların maraqla qarşılayacağı yeni nəsr əsərləri yazmağa həvəsləndirmək məqsədi ilə "Yeni fikir"çilər hekayə müsabiqəsi keçirməyi qərara almışdılar. Müsabiqəyə bir sıra dəyərli hekayələr təqdim edilmişdi ki, onlardan biri də Eynəli bəyin "Seyidlər" əsəri idi.

"Yeni fikir" qəzeti nəşriyyatı müsabiqədə bəyənilən hekayələri ayrı-ayrı kitabçalar şəklində nəşr edib oxuculara çatdırmağı qərara almışdı ki, bu sırada, ilk növbədə, Eynəli bəy Sultanovun "Seyidlər" əsəri çapdan buraxılmışdı. Eynəli bəyin hekayəsinə yüksək qiymət verən R.Nəcəfov onun dil sadəliyini, ən müxtəlif oxucu təbəqələri üçün anlaşıqlı olmasını xüsusi vurğulamışdır: "Oxucuların nəzər-diqqətinə təqdim etdiyimiz bu balaca əsər sadə və yarımsavadlı kəndli üçün belə anlaşılan tərzdə yazılmış bir hekayədir ki, nəşrini təhti-qərara aldığımız hekayə seriyasının birincisini təşkil edir. Bu kimi hekayələr buraxmağa şüru edərək öhdəmizə düşən vəzifəni kamilən ifa üçün oxucuların rəğbətinə və yazıçılarımızın himmət və yardımına möhtac olduğumuzu dəxi unutmayırıq".

"Seyidlər" hekayəsi ədəbi ictimaiyyət tərəfindən maraqla qarşılanmış, mətbuatda və müzakirələrdə müsbət rəylər bildirilmişdi. Kitabın nəşrinə ilk münasibət də məhz "Yeni fikir" qəzeti səhifələrində ortaya çıxmışdı. Tənqidçi Əziz Şərif qəzetin 31 yanvar 1926-cı il tarixli 1004-cü sayında "Biblioqrafiya" rubrikasında "Seyidlər" adlı resenziya dərc etdirmişdir.Yazının əvvəlində E.Sultanovun 22 səhifəlik bu kitabının "Yeni fikir" qəzetəsinin birinci nəşri" olması, abunəçilərə hədiyyə kimi göndərilməsi, həmçinin ədəbi mühitə faydalı təsir göstərəcəyi nəzərə çatdırılmışdır: "Yeni fikir" qəzetəsi tərəfindən nəşr edilərək abunəçilərə hədiyyə göndərilən bu balaca kitabça türk ədəbiyyatının indiki halı nəzərə alınarsa, heç də səmərəsiz keçməyəcək. Və indiki halda türk mətbuatında və ədəbiyyatında qələm vuranlar üçün təsirsiz qalmayacaqdır".

Bundan sonra Əziz Şərif "Seyidlər" hekayəsinin dilinin sadəliyinə xüsusi önəm vermiş, bu cəhətdən onu Molla Nəsrəddinin (Mirzə Cəlilin) əsərlərinə yaxın saymış, "süni türk dilində", yəni qəliz alınmalarla ağırlaşdırılmış tərzdə yazılan nümunələrə qarşı qoymuşdur. E.Sultanovun hekayəsindəki anlaşıqlı, sadə üslubu yüksək qiymətləndirən Ə.Şərif fikrini belə ümumiləşdirmişdir: "Seyidlər" kitabçasını yazan yazıçı oxucularını nəzərə alıbdır və bunu oxucunun dilində yazıbdır. Bunun özü təklikdə elə böyük başlayış, elə böyük təşəbbüsdür ki, biz bunu qeyd etməmiş keçə bilmərik".

Bunun ardınca isə Ə.Şərif qənaətlərinin təsdiqi üçün hekayədən bir neçə cümlə nümunə gətirmişdir: "Kitabçadan bir neçə parça götürək: "Gün qara təpəyə sancılan kimi Şirməmməd də öküzlər qabağında öz qapılarında hazır olardı". "Ay ana, havaxtadək sən məni bəbə hesab eləyəcəksən? Bir hovur evə gec gəlib çıxanda nigaran olacaqsan?" "Çəkmə buğlanıb, ətri ilə damı doldurmuşdu. Ağ lavaşlar da sufrada sərilib, adamın üzünə gülürdü".

Resenziyanın sonunda Ə.Şərif yazıçı E.Sultanovun kitabına Rzaqulu Nəcəfovun yazdığı müqəddimədə irəli sürülən fikirlərə tərəfdar çıxmış, "Seyidlər"in üstün məziyyətlərini bir daha vurğulamış və onun yolunun davam etdirilməsini vacib saymış, oxucuları bu maraqlı hekayəni oxumağa çağırmışdır: "Doğrudan da, Eynəli Sultanov yoldaş tərəfindən yazılan "Seyidlər" kitabçası çox gözəldir. Bizim kəndlərimizin bir neçə il bundan qabaq sürdüyü həyatının bir xırda parçasını göstərir. Biz istərdik ki, bu cür kitabçalar ədəbiyyatımızı doldurub sel kimi daşsın və ədəbiyyatımızdakı bulanıq cərəyanı yusun, aparsın... Kitabçanı nəşr edən "Yeni fikir" düz yola düşmüşdür. Biz istərdik ki, xalq qəzetəsi olan "Yeni fikir" bu yolda möhkəm dursun və gələcək nəşrlərini bu dildə meydana çıxarsın. Bu kitabça ilə aşina olmağı oxucularımıza çox məsləhət görürük".

Bütün bu müsbət cəhətlərlə yanaşı, elmi obyektivlik naminə onu da deyək ki, Əziz Şərifin məqaləsində bəzi ifratçılıq halları da nəzərə çarpır. Belə ki, o, Eynəli bəyin hekayəsinin anlaşıqlı olmasından danışarkən həmin dövr ədəbiyyatımızdakı dil sadəliyi məsələsini yalnız Mirzə Cəlilin əsərləri ilə məhdudlaşdırmaqla digər ədiblərə birtərəfli yanaşma nümayiş etdirmişdi. Və elə bu məqam da "Yeni fikir"in əməkdaşlarından olan tənqidçi-publisist Ələkbər Qərib Naxçıvanlının müəyyən narazılığına səbəb olmuşdu. Belə ki, Ələkbər Qərib "Yeni fikir" qəzetinin 2 fevral 1926-cı il tarixli 1005-ci sayında verilmiş "Tənqid və tənqidçilərimiz" adlı məqaləsində bir sıra digər mətləblərlə bərabər, Ə. Şərifin müəyyən birtərəfli mövqeyinə etiraz etmişdi. Ə.Qərib ədəbi dil məsələsinə də toxunmuş, Əziz Şərifin Eynəli bəy Sultanovun "Seyidlər" hekayəsinin dilindəki sadəliyi təqdir etməsini, obrazların nitqindəki təbiiliyi bəyəndiyini bildirmiş, amma onu da vurğulamışdı ki, ədəbi dil yalnız danışıq dilinin hüdudlarına qapanıb qalmamalı, daima inkişaf etməli, zənginləşməlidir.

İki gün sonra "Yeni fikir"in 4 fevral 1926-cı il tarixli sayında dərc olunmuş qeydlərində Əziz Şərif öz fikirlərini bir daha şərh etmişdir. Maraqlıdır ki, Ə.Qəriblə Ə.Şərifin polemikasına bir neçə gün sonra "Yeni fikir"in rəhbərlərindən tanınmış publisist Rzaqulu Nəcəfov da qoşularaq məsələlərə aydınlıq gətirməyə çalışmışdır. R.Nəcəfov qəzetin 8 fevral, 11 fevral və 14 fevral tarixli saylarında dərc olunmuş "Tənqidçilərimiz, dilimiz və ədəbiyyatımız" adlı silsilə məqalələrində Ə.Qəribin və Ə.Şərifin toxunduqları problemlərə, o cümlədən E.Sultanovun "Seyidlər" hekayəsinin dilinə hərtərəfli münasibət bildirmiş, onların yanaşmalarını obyektiv mövqedən dəyərləndirmişdir. Tədqiqat göstərir ki, E.Sultanovun "Seyidlər" əsərinin dili ətrafında başlanan bu maraqlı elmi-ədəbi müzakirənin əks-sədası "Molla Nəsrəddin" jurnalı səhifələrinə də gedib çıxmışdır. Jurnalın 1926-cı ilin fevralında çıxmış 7-ci sayında "Yazıçı" imzasıyla verilmiş "Bir az da özümüzdən" adlı felyetonda "Yeni fikir"dəki ədəbi polemikaya münasibət bildirilmişdir.

Tiflisdə nəşr olunmuş "Seyidlər" kitabçası Bakıda da ədəbi ictimaiyyətin diqqətini çəkmişdi. Tanınmış ədəbiyyatşünas Abbas Zamanovun bir qeydi də bundan soraq verir. Görkəmli alim xatırlayırdı ki,1927-ci ilin qışında Bakıda "Kommunist" qəzetinin klubunda müasir hekayənin vəziyyəti və vəzifələrinə həsr olunmuş ədəbi məclisdə məruzə edən məşhur tənqidçi Seyid Hüseyn "E.Sultanovun yaradıcılığı üzərində xeyli dayandı, onun "Seyidlər" və "Acı məcara" əsərlərini dövrün yaxşı hekayələri sırasına daxil etdi" .

*Deyilənlər göstərir ki, Eynəli bəy Sultanovun 1926-cı ildə Tiflisdə nəşr edilən "Seyidlər" kitabı nəsrimizin ciddi uğuru kimi yüksək dəyərləndirilmişdir.*

**Hüseyn HƏŞİMLİ**
*filologiya üzrə elmlər doktoru*

***Naxçıvan elmi-ədəbi, ictimai-siyasi, mədəni mühiti Azərbaycan tarixinə, ədəbiyyatına, elminə, mədəniyyətinə bir çox ilklər bəxş etmişdir.***

# Eynəli bəy Sultanovun səhnəyə gətirdiyi ilk azərbaycanlı qadın aktrisa kim idi?

Bu yazımızda 1883-cü ildə Naxçıvanda "Müsəlman incəsənəti və dram cəmiyyəti" adlı bir ədəbi cəmiyyət yaradan, ilk dəfə qadın rollarında çıxış etmiş azərbaycanlı qızı Göyərçin xanımı səhnəyə gətirən Eynəli bəy Sultanovun fəaliyyətinə dair bir çox maraqlı faktı diqqətinizə çatdıracağıq.

Dövrün tərəqqipərvər, açıqfikirli ziyalılarından olan Məhəmməd ağa Şahtaxtlı, Qurbanəli Şərifov, Məhəmməd Tağı Sidqi, Cəlil Məmmədquluzadə, Eynəli bəy Sultanov, Mirzə Ələkbər Bəyalı oğlu Süleymanov, Mirzə Məmməd Zamanbəyov və başqalarının təşəbbüsü və səyi nəticəsində yaranan "Müsəlman incəsənəti və dram cəmiyyəti"nin fəaliyyətinə şəhərin tərəqqipərvər adamları kömək edirdilər.

Eynəli bəy Sultanov Naxçıvan teatrının yaranması və təşəkkülündə əhəmiyyətli rol oynamışdır. O, həmməsləklərini öz ətrafında toplamağı, gənclərin qəlbində incəsənətə məhəbbət alovu yandırmağı, xalqına vətənpərvərlik hissləri aşılamağı bacarırdı.

"Eynəli Sultanovla məni yaxınlaşdıran Naxçıvan teatrosu səhnəsi olmuşdur. O, olduqca tərəqqipərvər bir şəxs idi. Dövrün xüsusiyyətləri ilə əlaqədar olan səhnə aləmində mövcud çətinliklərə qarşı o, yorulmadan çalışır və əmələ gələn çətinliklərin nəyin bahasına olur-olsun, aradan qaldırırdı". Bu sözləri məşhur tədqiqatçı Əli Sultanlı "Atam və Eynəli Sultanov haqqında xatirələrim" adlı məqaləsində yazmışdır. Xatirədə diqqətçəkən məqamlardan biri də o dövrdə qadına cəmiyyətin münasibəti idi. Məqalədə qadına qarşı fanatik, cahil mövqe və teatra din adamlarının kəskin, tənqidi münasibəti də aydın şəkildə şərh olunub.

Bir müddət Naxçıvanda yaşayan və ictimai həyatda fəal iştirak edən sənətkarın 1908-ci ildən etibarən həyat və fəaliyyətinin Tiflis dövrü başlanır. Ömrünün sonunadək Tiflisdə yaşayan ədib bu illərdə ədəbi-ictimai mühitin müxtəlif istiqamətlərində, xüsusilə də teatrın və mətbuatın inkişafında yaxından iştirak etmiş, pedaqoji fəaliyyətlə məşğul olmuşdur. Belə ki, Eynəli bəy Sultanov 1909-cu ildə Tiflisdə "Zubalov adına xalq evi" yanında Azərbaycan dram şöbəsinin əsas təsisçilərindən biri olmuş, 1911-ci ildə Gürcü Əyanlar Teatrında təşkil olunan Azərbaycan Teatr Cəmiyyətinin bürosuna üzv seçilmişdir.

Eynəli bəy Sultanovun Tiflisdə gördüyü işlər barəsində sənətkarın tədqiqatçısı, AMEA Naxçıvan Bölməsinin əməkdaşı Elxan Məmmədovun əldə etdiyi arxiv materiallarında bir çox maraqlı məqama rast gəldik. E.Məmmədovun bizə təqdim etdiyi həmin sənədlərin biri Xalq artisti İbrahim İsfahanlının xatirəsinin əlyazma mətnidir. Xatirədə Eynəli bəy Sultanov haqqında yazılan bu fikirləri oxuyuruq: "Mən Hüseyn Ərəblinskinin rəhbərliyi ilə təşkil olunmuş və onun rejissorluğu ilə tamaşaya qoyulmuş "Gaveyi ahəngər" əsərində çıxış etdiyim gündən Eynəli Sultanovu daha yaxşı tanımağa başladım. O zaman Bakıda, bir sözlə, Azərbaycanda olduğu kimi, Tiflisdə də cavan aktyorları çıxılmaz vəziyyətdə qoyan azərbaycanlı qızının səhnədə iştirak etməməsi idi. Buna görə də biz qadın iştirak etməyən əsərləri tamaşaya qoymağa məcbur idik. Səhnəmizdə azərbaycanlı qızının olmaması çox çətinlikdən sonra senzordan icazə alıb tamaşaya qoyduğumuz Azərbaycan həyatını əks etdirən əsərlərdə özünü daha çox hiss etdirirdi. Bu əsərlərdəki azərbaycanlı qadın rollarını rus aktrisaları ifa edirdilər. Tiflis səhnəsini bir müddət bu çətinlikdən qurtaran Eynəli Sultanov oldu. O, "Tiflis müsəlman dram cəmiyyəti"nin yeganə üzvü idi ki, ilk dəfə qadın rollarında çıxış etmiş azərbaycanlı qızı Göyərçin xanımı da səhnəyə gətirmişdir. 1910-cu ilin 30 oktyabrında tamaşaya qoyulan "Dəmirçi Gavə" əsərində Xubçöhr rolunda Göyərçin xanım, Gavə rolunda isə Eynəli Sultanov məharətlə çıxış etmişdir. Sonralar Göyərçin xanım teatrdan ayrıldı. O, 1914-cü ildə Tiflisə qastrola gəlmiş Mirzəağa Əliyevlə evlənmiş və səhnəni tərk edərək tibb işçisi olaraq çalışmağa başlamışdır. Buna baxmayaraq, bir müddət qadın rollarını yenə Eynəli Sultanov ifa etdi. O, N.Vəzirovun "Müsibəti-Fəxrəddin" əsərində Hürü nənə, "Hacı Qənbər" əsərində Dilbər xanım, Ə.Haqverdiyevin "Pəri-cadu" əsərində Şamama-cadu və sair rollarda çıxış etmişdir. Eynəli Sultanovun qadın rollarında çıxış etməsi Şeytanbazarın fanatik müsəlmanları tərəfindən lağa qoyulurdu. Eynəli Sultanov isə bunlara fikir verməyərək deyirdi ki, zaman gələr, yazıq müsəlmanlar başa düşərlər ki, mənə yox, öz faciəli tarixlərinə gülürlərmiş, – deyərək teatrın inkişafında misilsiz xidmətlər göstərməyə davam edirdi". (İbrahim İsfahanlı xatirəsi (əlyazması) – Gürcüstan SSR Dövlət Teatr Muzeyi –Azərbaycan teatr materialları – fond 13).

*Göründüyü kimi, Eynəli bəy Sultanovun xidmətləri bir çox istiqamətdə olub. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Eynəli bəy Sultanovun 150 illik yubileyinin keçirilməsi haqqında" 2016-cı il 15 fevral tarixli Sərəncamı görkəmli mütəfəkkirin həyat və fəaliyyətinin öyrənilməsi və geniş oxucu auditoriyasına çatdırılması baxımından son dərəcə mühüm addımdır.*

**Nərgiz İSMAYILOVA**

# Boks turniri başa çatıb



*Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində boks üzrə "Heydər Əliyev kuboku" uğrunda keçirilən muxtar respublika turniri başa çatıb. Beynəlxalq Boks Federasiyasının qaydalarına uyğun olaraq keçirilən turnirdə muxtar respublikanın şəhər və rayonlarının dəri əlcək sahibləri mübarizə aparıblar.*

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Boks Federasiyasının birgə təşkil etdiyi və 80-ə yaxın dəri əlcək sahibinin mübarizə apardığı turnirin son günündə rinqə finalçılar çıxıblar. Reqlamentə əsasən, turnirdə 2000, 2001, 2002-ci illər təvəllüdlü yeniyetmələr, gənclər və böyüklər 10 çəki dərəcəsində – 40, 45, 50, 56, 60, 64, 69, 75, 81 və 91 kiloqramda qalibi müəyyənləşdirməyə çalışıblar.

Gözlənildiyi kimi, yenə 60, 64 və 75 kiloqram çəki dərəcələrindəki final görüşləri böyük marağa səbəb olub. 60 kiloqram çəki dərəcəsində Sədərək boksçusu Müslüm Tağıyev beynəlxalq turnirlərin qalibi Sərxan Əliyevlə üz-üzə gəlib. Lakin daha üstün döyüş sergiləyən Sərxan Əliyev hər üç raundu qələbə ilə başa vurub. 65 kiloqram çəki dərəcəsində keçirilən həlledici qarşılaşma isə mübarizliyi ilə seçilib. Muxtar respublikanı beynəlxalq yarışlarda layiqincə təmsil edən Tayfur Əliyev "Heydər Əliyev kuboku" uğrunda turnirin qalibi olmaq üçün İbrahim Cəfərzadə ilə qarşılaşıb. Ölkə birinciliklərinin və beynəlxalq turnirlərin mükafatçıları olan hər iki dəri əlcək sahibinin döyüşündə rinqi qalib kimi Tayfur Əliyev tərk edib. Məhəmmədəli Bağırov isə 75 kiloqram çəki dərəcəsində Kəngərli təmsilçisi Məhəmməd Bayramovu üstələyib. Digər çəki dərəcələrində isə Ülvü Süleymanov (40 kiloqram, Naxçıvan), Kənan Şəfiyev (45 kiloqram, Şərur), Kənan İbrahimov (50 kiloqram, Ordubad), Kamran Allahverdiyev (56 kiloqram, Naxçıvan), Elnur Mustafayev (69 kiloqram, Şərur), Sərvər Abdullayev (81 kiloqram, Naxçıvan) və Bəhruz Cabbarov (91 kiloqram, Şərur) bütün rəqiblərinə qalib gələrək turnirin baş mükafatını qazanıblar.



Komanda hesabında isə "Naxçıvan" komandası turnirin qalibi olub.

Sonda qalib idmançılar mükafatlandırılıblar. Mükafatları Naxçıvan Muxtar Respublikası gənclər və idman naziri Azad Cabbarov və Boks Federasiyasının sədri Məhərrəm Talıbov təqdim ediblər.

**Ceyhun MƏMMƏDOV**

# Naxçıvan şəhərində rəsm sərgisi açılıb



*Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonunda ulu öndər Heydər Əliyevin anadan olmasının 93-cü ildönümü münasibətilə "Ümummilli lider Heydər Əliyev dühası əbədiyaşardır" adlı rəsm sərgisi açılıb.*

Sərginin açılış mərasimində çıxış edən Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri, Azərbaycan Respublikasının Əməkdar rəssamı Ülviyyə Həmzəyeva ulu öndərin Azərbaycan üçün gördüyü misilsiz işlərdən ətraflı söhbət açıb.

Ülviyyə Həmzəyeva bildirib ki, dahi şəxsiyyət Heydər Əliyev bütün ömrünü Azərbaycanın inkişafına həsr edib, ölkəmizin müstəqilliyinin qorunub saxlanılması üçün əlindən gələni əsirgəməyib. O, bugünkü qüdrətli Azərbaycan Respublikasının qurucusu və memarıdır.

"Naxçıvan Rəssamlar Birliyinin yaradılması da ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Belə ki, 1971-ci ilin iyun ayında məhz ulu öndərin göstərişi ilə Azərbaycan Rəssamlar İttifaqının Naxçıvan Təşkilatı yaradıldı və ilk günlər 9 üzvlə fəaliyyətə başladı", – deyən Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri qeyd edib ki, ulu öndər hələ məktəb illərindən rəssamlığa böyük maraq göstərib. Onun kiçik yaşlarından çəkdiyi dəyərli rəsm əsərləri də belə deməyə əsas verir. Bu gün həmin əsərlər Naxçıvan şəhərindəki Heydər Əliyev Muzeyində saxlanılır.

Qeyd olunub ki, xüsusi rəssamlıq təhsili alması və gələcəkdə rəssam olmaq istəyi sonralar Onun fəaliyyətində yüksək yaradıcılıq əzmini, qurub-yaratmaq şövqünü həmişə qüvvətləndirib. Ulu öndər Azərbaycanda mədəniyyətin, incəsənətin inkişafı üçün əlindən gələni əsirgəməyib. Bu sahədə də xüsusi xidmətləri olan dahi şəxsiyyətin işıqlı xatirəsi və uca əməlləri müstəqil Azərbaycan Respublikası tarixində və onun xalqının yaddaşında əbədi yaşayacaqdır.

Tədbirdə sənətşünas Nizami Alıyev çıxış edərək deyib ki, milli və ümumbəşəri mədəniyyəti çox dərindən bilən Türk dünyasının böyük oğlu Heydər Əliyev mədəniyyətimizin inkişafı üçün hər zaman əzmkarlıq, fədakarlıq, təşəbbüs və yüksək təşkilatçılıq nümunəsi göstərib.

Sonra rəsm sərgisinə baxış olub.

Sərgidə 21 rəssamın 42 əsəri nümayiş olunur. Sərgi iştirakçıları ulu öndərin portretinə, ulu yurd yeri Naxçıvanın füsunkar təbiət mənzərələrinə maraqla baxıblar.

Sərgi mayın 18-dək davam edəcək.

**R.ƏLİYEV**

# "1941-1945-ci illərdə Azərbaycan ailəsi və qadını" mövzusunda tədbir keçirilib

1941-1945-ci illər müharibəsində alman faşizmi üzərində qələbənin 71-ci ildönümü münasibətilə Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsində keçirilən tədbiri komitənin sədr müavini Aytən Məmmədova açıb. Bildirilib ki, qadınların qəhrəmanlıq tarixində də rolu böyükdür. Tarixə nəzər salmaq kifayətdir ki, qadınların güclü və mübariz olduğunu görəsən. Azərbaycan qadınları hər zaman öz şücaəti və mərdliyi ilə digər xalqların qadınlarından seçiliblər. Xalqımızın mərd oğulları ilə yanaşı, qadınlarımızın Vətənə məhəbbəti və sədaqəti, cəbhə fədakarlığı məhz 1941-1945-ci illər müharibəsində də özünü göstərib. Belə ki, vətənin üstünü ağır faşist istilası təhlükəsi alanda Azərbaycan qadınları və qızları da ölkənin müdafiəsinə qalxıblar. Həyat yoldaşlarını, oğul və qardaşlarını döyüşə göndərən Azərbaycan qadınları arxa cəbhədə qəhrəmanlıqlar nümayiş etdiriblər.

Vurğulanıb ki, müharibə illərində respublikamızdan cəbhəyə gedən 700 minə qədər döyüşçüdən 11 mindən çoxu qadın olub. Onların arasında Naxçıvan Muxtar Respublikasından qadınlar da olub ki, bu qadınlar həmin müharibədə xüsusi qəhrəmanlıqları ilə seçiliblər. Onlardan Dilbər Təhməzbəyovanı, Səkinə Quliyevanı, Zərifə Camalbəyovanı və başqalarını misal göstərə bilərik. Bu qəhrəman qadınlarımız cəbhədə igidlik və fədakarlıq nümunələri göstəriblər. Belə ki, vətənin mərd oğulları cəbhəyə yola düşdüyündən bütün işlərdə qadınlar işləyirdilər.

1941-1945-ci illər müharibəsi veteranları Cəfər Əliyev, Vakil Mehdiyev çıxış edərək keçdikləri döyüş yolundan danışıblar. Onlar gənclərə vətənpərvər ruhda formalaşmaları üçün tövsiyələrini veriblər.

Tədbirdə Heydər Əliyev adına Hərbi Liseyin tarix müəllimi Mehri Qasımova çıxış edərək tədbir iştirakçılarına 1941-1945-ci illər müharibəsində qadınların iştirakı ilə bağlı ətraflı məlumat verib.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

# Azərbaycan çempionatında sərbəst güləşçilərimizin və kikboksinqçilərimizin uğurları

*Bakı şəhərində Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin əməkdaşları arasında sərbəst güləş üzrə respublika çempionatı keçirilib.*

Yarışda Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin idmançıları da mübarizə aparıblar. Şəxsi və komanda yarışında idmançılarımız uğurlu nəticə əldə ediblər. Belə ki, çempionatda ən uğurlu nəticəni 74 kiloqram çəki dərəcəsində mübarizə aparan Ramin Məmmədov qazanıb. O, bütün rəqiblərinə qalib gələrək qızıl medala sahib çıxıb. Elşən Qasımov (61 kiloqram), Mahir Babayev (66 kiloqram) və Elməddin Abdullayev (96 kiloqram) finala kimi yüksəlsələr də, həlledici qarşılaşmada məğlub olaraq çempionatı ikinci pillədə başa vurublar. Rəşad Həsənov (66 kiloqram), Cavanşir Yaqubov (85 kiloqram), Kamil Salayev (96 kiloqram) və Rəşadət Nuriyev (125 kiloqram) isə çempionatın bürünc medalını qazanıblar.

24 komandanın mübarizə apardığı yarışda Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin komandası ümumi hesabda çempionatın üçüncüsü olub.

Sonda qaliblərə təşkilatçılar tərəfindən diplom və medal, komandaya isə kubok təqdim edilib.

* * *

Naxçıvan Muxtar Respublikası Şərq Döyüşü Sənəti Federasiyasının yetirmələri Azərbaycan çempionatında yeni uğura imza atıblar. İsmayıllı rayonunda keçirilən yeniyetmələr arasında kikboksinq üzrə ölkə birinciliyində muxtar respublikanı 8 idmançı təmsil edib.

Qızların mübarizəsində rinqə çıxan Tulin Əsgərova naxçıvanlıları sevindirib. 45 kiloqram çəki dərəcəsində idmançımız bütün rəqiblərini üstələyərək çempionatın qızıl medalını qazanıb. Oğlanların mübarizəsində isə Qurban Qənbərli (52 kiloqram) və Rauf Həsənov (54 kiloqram) bürünc medal qazanıblar.

İdmançılarımız təşkilatçılar tərəfindən diplom və medalla təltif olunublar.

**Xəbərlər şöbəsi**

# Naxçıvan Muxtar Respublikasının Dövlət Energetika Agentliyi üzrə 2016-cı ilin aprel ayında verilən elektrik enerjisinin miqdarı, elektrik enerjisi satışından toplanan vəsait və ödənilmə faizi barədə məlumat

| S/№ | Şəhər və rayonlar | Verilən elektrik enerjisinin miqdarı (min kvt/saat) | Elektrik enerjisinin dəyəri (min manat) | Toplanan vəsait (min manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Ordubad rayonu | 1161 | 69,7 | 70,0 | 100,4 |
| 2. | Şahbuz rayonu | 433 | 26,0 | 26,1 | 100,4 |
| 3. | Kəngərli rayonu | 455 | 27,3 | 27,4 | 100,4 |
| 4. | Culfa rayonu | 1098 | 65,9 | 66,0 | 100,2 |
| 5. | Babək rayonu | 1734 | 104,0 | 104,1 | 100,1 |
| 6. | Naxçıvan şəhəri | 2860 | 171,6 | 171,6 | 100,0 |
| 7. | Şərur rayonu | 1500 | 90,0 | 90,0 | 100,0 |
| 8. | Sədərək rayonu | 385 | 23,1 | 23,1 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 23454 | 1407,2 | 1413,9 | 100,5 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **33080** | **1984,8** | **1992,2** | **100,4** |

**Qeyd:** Aprel ayında texniki itki nəzərə alınmaqla daxil olan 33 milyon 80 min kilovat-saat elektrik enerjisinin dəyəri 1 milyon 984 min 800 manat olmuş, cəmi 1 milyon 992 min 200 manat vəsait toplanmışdır ki, bu da istifadə olunan enerjinin dəyərinin 100,4 faizini təşkil edir.

***İtmişdir***

Rzayeva İlahə Məhərrəm qızına Naxçıvan Dövlət Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı

Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1050. Sifariş № 354